Məmmədli İ.E.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.171-179
UOT: 342

# Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin konstitusion xüsusiyyətləri və ümumi xarakteristikası

**Xülasə:** Müəllif bu məqalədə Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin konstitusion xüsusiyyətləri, ümumi xarakteristikası, səlahiyyətləri və həll etdiyi məsələlər, konstitusiya hüququ, deputatların səlahiyyətləri ilə qarşılıqlı prizmadan təhlil etmiş, bu prosesdə xarici və milli qanunvericilik bazasını, beynəlxalq təcrübəni tədqiq etmiş, Milli Məclisin səlahiyyətlərinin konstitusion xüsusiyyətləri və ümumi xarakteristikası mexanizmini araşdırmış, qanunvericiliyin və praktikanın təkmilləşdirilməsi məqsədilə bir sıra təkliflər irəli sürmüşdür

**Açar sözlər:** Milli Məclis; qanunvericilik təşəbbüsü hüququ; səlahiyyətlər; qanunverici orqan; referendum.

I. **Mövzunun aktuallığı.** Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdiyi ilk dövrlərdən vətəndaş cəmiyyətinin və ictimai münasibətlərin bərqərar edilməsini, hüquqi və demokratik dövlət quruculuğunu öz inkişafının başlıca istiqamətləri kimi müəyyən etmişdir. 1993-cü ildə xalqımızın dahi oğlu Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə reallaşmağa başlayan bu vəzifələr 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulundan sonra böyük vüsətlə həyata keçirilmişdir. Məqalədə təqdim edilən mövzunun aktuallığı, ilk növbədə, Azərbaycan Respublikasının parlamentinin – Milli Məclisin vasitəsilə ictimai münasibətlərin hüquqi tənziminin, tədqiqinin, praktiki əhəmiyyətinin əsaslandırılması ilə əlaqəlidir. Milli Məclisin fəaliyyəti respublikamızda parlamentarizmin yaranması və formalaşdırılması, demokratiyanın gələcək taleyi və inkişaf forması ilə bilavasitə əlaqədardır. Vətəndaşların parlamentdə onların maraqlarını təmsil edən Milli Məclis üzvlərinə münasibəti bir çox hallarda parlamentin dövlət hakimiyyəti orqanları sistemində yerini və parlamentarizmin inkişaf perspektivlərini müəyyən edir.

II. **Milli Məclisin statusunu müəyyən edən konstitusiya normaları.** Azərbaycan Respublikasında hakimiyyət bölgüsünə uyğun olaraq, dövlət hakimiyyəti özünün üç əsas qanunverici icra və məhkəmə funksiyası üzrə bölünməklə təşkil edilir. Hər bir funksiya ayrı bir orqanda lokalizasiya edilir və bu orqan digər funksiyaları daşıyan orqanlara münasibətdə onun müstəqilliyini təmin edən müəyyən səlahiyyətlərə malik olur. Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir. Belə ki, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir və qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Konstitusiyanın müddəalarına əsasən qanunvericilik hakimiyyətini həyata

♦ **Məmmədli İlqar Elbrus oğlu -** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Məhkəmə mübahisələri ilə iş üzrə mərkəzi filialın mütəxəssisi (Azərbaycan). E-mail: memmedliilqar52@gmail.com

keçirən Milli Məclis, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Milli Məclis ən əsas və aparıcı dövlət orqanlarından biridir. Buna səbəb odur ki, ölkədə bütün şəxslərin riayət etməli olduğu hüquq normalarını məhz bu orqan yaradır. Bununla belə, Milli Məclis digər ali hakimiyyət orqanları ilə (Prezident və Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini həyata keçirən məhkəmələrlə) eyni səviyyədə dayanır və qarşılıqlı fəaliyyət göstərirlər. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 82-ci maddəsinə görə, qanunvericilik hakimiyyətini həyata keçirir.

Konstitusiyamızda birbaşa göstərilməsə də, bir çox ölkələrin konstitusiyalarında qanunverici orqanın həm də ümumxalq təmsilçiliyi orqanı olması əks olunur. Azərbaycan Respublikasında da qanunverici orqan təmsilçi orqandır və bütün xalqın adından çıxış edə bilər. Qanunverici orqanların bu iki əsas funksiyası (qanunvericilik və təmsilçilik) müxtəlif cür təmin olunur və bu funksiyaların özü də müəyyən fərqli realizə formalarına malikdir. Məsələn, dünyanın bir çox ölkələrində qanunvericilik funksiyasını yalnız parlament deyil, parlamentlə yanaşı, onunla az-çox əlaqəsi olan digər orqanlar da həyata keçirir. Məsələn, İtaliya və Yunanıstanda parlamentin komissiyaları bir sıra məsələlər üzrə özləri qanun qəbul etmək səlahiyyətinə malikdirlər. Təmsilçilik funksiyası, adətən hər hansı orqanla bölünmür və birbaşa parlament tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasında parlament Sovet İttifaqı zamanında da mövcud olmuşdur [6, s. 189].

Azərbaycan Respublikası Milli Məclisinin statusunu müəyyən edən konstitusiya normaları Azərbaycan Respublikasının Konstitusiyasının "Dövlət hakimiyyəti" adlanan üçüncü bölməsinin 5-ci – "Qanunvericilik hakimiyyəti"fəslində təsbit edilmişdir. Qeyd etmək istəyirik ki, Konstitusiyanın 81-98-ci maddələrində Milli Məclisin status və səlahiyyətləri əks olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə əsasən Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. 82-ci maddədə qeyd edilir ki, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Konstitusiyanın 83-cü maddəsi Milli Məclisinin deputatlarının seçkilərinə həsr olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. 84-cü maddəyə görə,Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır [1].

Azərbaycan Respublikasının Milli Məclisinin Daxili Nizamnaməsinin "Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin ümumi qaydaları" adlanan birinci fəslinin birinci maddəsində Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin əsaslarına yer verilmişdir. Qeyd edilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi (bundan sonra "Milli Məclis" adlanacaq) Azərbaycan Respu-

blikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələləri müstəqil həll edir. Milli Məclisin fəaliyyətinin əsas prinsiplərini aşkarlıq, siyasi plüralizm və çoxpartiyalılıq, məsələlərin sərbəst müzakirə və müstəqil həll olunması təşkil edir. Milli Məclisin hər çağırışının növbəti və növbədənkənar sessiyaları ardıcıl sıra sayı ilə adlanır. Milli Məclisin sessiyalarının başlanması və qurtarması zamanı Azərbaycan Respublikasının Dövlət himni ifa olunur. Milli Məclis növbəti və növbədənkənar sessiyalar dövründə iclaslar keçirir. Milli Məclisin deputatlarının Milli Məclisin iclaslarında iştirakı məcburidir. Səlahiyyəti dövründə Milli Məclis ildə iki dəfə - iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır. Tətil dövründə Milli Məclisin deputatları məzuniyyətdə sayılırlar. Tətil dövründə Milli Məclisin növbədənkənar sessiyası çağırıldıqda Milli Məclisin tətili növbədənkənar sessiyanın keçirildiyi müddətə dayandırılır və Milli Məclisin deputatları həmin müddətə məzuniyyətdən geri çağırılırlar. Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin I hissəsinin birinci abzasına uyğun olaraq Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir. Əgər fevralın 1-i və sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır [2].

III. **Milli Məclisin Konstitusiyaya əsasən səlahiyyətlərinin konstitusion xarakteristikası.** Milli Məclisin öz konstitusion funksiyalarını müvəffəqiyyətlə həyata keçirə bilməsi üçün Azərbaycan Respublikasının Konstitusiyasında zəruri səlahiyyətlər təsbit olunmuşdur. Parlamentin konstitusion səlahiyyətlərinin həcmindən asılı olaraq onun üç növü vardır. Parlament idarəçilik formasının hökm sürdüyü ölkələrdə parlamentin səlahiyyətləri qeyri-məhduddur. E.Uejd və F.Fillips qeyd edirdilər ki, parlamentin aliliyi:

1. qanunvericiliyin aliliyini;
2. dövlət büdcəsini təsdiq etmək və vergiləri təyin etmək hüququnu;
3. hökumətin parlament qarşısında kollektiv məsuliyyətini;
4. hakimləri təyin etmək hüququ;
5. rəqabət aparan başqa oxşar hakimiyyətlərin olmamasını nəzərdə tutur [12, s.70].

Piter Bromhedə görə, qanunvericilik aktlarının məzmunu ilə bağlı heç bir konstitusion məhdudiyyət yoxdur, hər hansı qanunun qəbulu ilə bağlı hər hansı maneə yoxdur [10, s. 199]. ABŞ Konstitusiyasının 1-ci maddəsinin 1-ci bəndində qeyd olunur ki, burada bütün qanunvericilik səlahiyyətləri senat və nümayəndələr palatasından ibarət Birləşmiş Ştatlar konqresinə verilmişdir. İtaliya Respublikasının Konstitusiyasının 55-ci maddəsinə görə, parlament millət vəkilləri Palatasından və Respublika senatından ibarətdir. Həmin konstitusiyanın 70-ci maddəsində isə qanunvericilik funksiyasının hər iki palata tərəfindən birgə yerinə yetirilməsindən bəhs olunur. Yaponiyanın 1946-cı il Konstitusiyası 41-ci maddədə nəzərdə tutur ki, parlament ən ali dövlət hakimiyyət orqanıdır və dövlətin yeganə qanunverici orqanıdır. Yaponiya konstitusiyasında parlamentin səlahiyyətləri sadalanmadığından, predmetinə görə onun səlahiyyətlərinin qeyri-məhdud olması nəticəsinə gəlmək olar. Yaponiya Konstitusiyasının 59-64-cü maddələrindən parlamentin qanunvericilik, büdcə, nəzarət və məhkəmə səlahiyyətlərinə malik olmasını müəyyənləşdirmək olar.

Azərbaycan Respublikasının Konstitusiyası Milli Məclisin səlahiyyətlərini onun müəyyən etdiyi ümumi qaydalar və həll etdiyi məsələlərdən ibarət olmaqla iki qrupa bölür. Milli Məclisin müəyyən etdiyi ümumi qaydalarla həll etdiyi məsələlər arasında fərqli cəhətlər vardır. Milli Məclis tərəfindən ümumi qayda müəyyən edilməsi onun tərəfindən hüquq norması müəyyən edilməsini

nəzərdə tutur. Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar onun qanunvericilik funksiyası ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsi Milli Məclisin müəyyən etdiyi ümumi qaydaları təsbit edir. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsində isə Milli Məclis tərəfindən həll edilən məsələlərin dairəsi göstərilmişdir. Milli Məclisin həll etdiyi məsələlər qanunvericilik hakimiyyətini təmsil edən orqan kimi onu icra və məhkəmə hakimiyyəti ilə əlaqələndirən və hakimiyyət bölgüsündə iştirak etməyə imkan verən səlahiyyətlərindən təşkil olunmuşdur.

Səlahiyyətlərin sisteminə görə parlamentləri 3 qrupa – məhdud səlahiyyətli parlamentlər, qeyri-məhdud səlahiyyətli parlamentlər və nisbi-məhdud səlahiyyətli parlamentlərə bölmək olar.

Məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qanunvericiliklə dəqiq müəyyən olunmuşdur və həmin səlahiyyətlərin genişləndirilməsi imkanı yoxdur. Məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri az olduğuna görə onların digər hakimiyyət orqanlarına təsir imkanları zəifdir. Parlamentlərin səlahiyyətlərinin məhdudluğu mütləq və nisbi ola bilər. Səlahiyyətlərin mütləq məhdudlaşdırılmasına Fransa Konstitusiyasında təsadüf olunur. Konstitusiyanın 24-cü maddəsinə görə parlament Milli Məclis və Senatdan ibarətdir. Millət vəkilləri Milli Məclisə birbaşa seçilir.

İkinci qrup kimi qeyri-məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qismən qanunvericiliklə dəqiqləşdirilir və digər hakimiyyət qollarına aid edilməyən bütün məsələlərin həlli bu orqana tapşırılır. Qeyri məhdud səlahiyyətli parlamentlərdən fərqli olaraq, nisbi-məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qanunvericiliklə dəqiq müəyyənləşdirilir, bununla belə, onların artırılması mexanizmi də mövcud olur. Azərbaycan Respublikasının Milli Məclisi səlahiyyət sisteminə görə nisbi məhdud səlahiyyətli parlamentdir. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin III hissəsi və 95-ci maddəsinin IV hissələrində qeyd olunur ki, bu maddənin birinci hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər. Deməli, buradan belə nəticəyə gəlmək olar ki, Milli Məclisin səlahiyyətləri genişləndirilə bilər. Azərbaycan Respublikasının Konstitusiyası ilə Milli Məclisə verilən səlahiyyətlər onun faktiki fəaliyyət imkanını, habelə parlament tərəfindən dövlət idarəçiliyinin həyata keçirilməsinə təsirini müəyyən edir.

Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin ümumi xarakteristikası haqqında danışarkən buraya beynəlxalq müqavilələrin təsdiqi və ləğvini də aid etmək lazımdır. Bu səlahiyyət hüquq ədəbiyyatında beynəlxalq müqavilələrin ratifikasiyası və denonsasiyası da adlanır. Ratifikasiya dövlətin müəyyən olunmuş formada sazişin bağlanmasına verdiyi yekun razılığıdır. Denonsasiya isə dövlətin müəyyən olunmuş formada sazişin pozulmasına yönələn iradəsidir. Ənənəvi olaraq beynəlxalq müqavilələri ratifikasiya və denonsasiya etmək səlahiyyəti dövlət başçısına məxsus olub. Amma zaman keçdikcə beynəlxalq sazişlər dövlətin daxili qaydalarına daha çox müdaxilə etməyə, onu öz daxili qanunvericiliyində bu və ya başqa şəkildə dəyişikliklər etməyə sövq etdi. Beynəlxalq müqavilələrin daxili qanunlarla müqayisədə üstünlüyü prinsipi son dövrlərdə konstitusiyalara da nüfuz etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında da bu prinsip öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə görə isə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul

edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir [1].

Azərbaycan Respublikası Konstitusiyasının yuxarıda qeyd etdiyimiz maddələrindən göründüyü kimi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericiliyinin tərkib hissəsidir. Bu normalarda beynəlxalq müqavilələrin üstünlüyü prinsipi qəbul olunur. Lakin istisna ondan ibarətdir ki, Azərbaycan Respublikasının Konstitusiyası və referendum (ümumxalq səsverməsi) yolu ilə qəbul edilən qanunlarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında kolliziya yaranarsa, onda Konstitusiyanın və referendumla qəbul edilən qanunun norması tətbiq olunur. Beynəlxalq müqavilələr Azərbaycan Respublikası qanunvericilik sistemində üçüncü yerdə durur. Çünki qanunlar arasında ziddiyyət olduqda qanunların iyerarxiyasının yuxarı pilləsində duran aktın göstərişləri tətbiq olunur. Deməli konstitusiya və referendumla qəbul olunan qanunlar istisna olmaqla, digər qanunlarla beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilənin norması tətbiq olunduğundan, əslində Azərbaycan Respublikasının qanunvericilik sistemində üçüncü yerdə qanunlar deyil, beynəlxalq müqavilələr durmalıdır [5, s. 88].

Azərbaycan Respublikası Konstitusiyasının 7, 10, 12-ci maddələri, 95-ci maddəsinin birinci hissəsinin 4-cü bəndi, 109-cu maddəsinin 17-ci və 30-cu bəndləri, 130-cu maddəsinin üçüncü hissəsinin 6-cı bəndi, onuncu hissəsi, 148-ci maddəsinin ikinci hissəsi, 151-ci maddəsi beynəlxalq hüquqla bağlı müxtəlif məsələləri tənzim edir. Beynəlxalq hüququn daxili hüquqla əlaqələrini ifadə etmək üçün milli-hüquqi implementasiya terminindən istifadə edilir. Milli-hüquqi implementasiya beynəlxalq hüququn daxili qanunvericiliyə gətirilməsi prosesi və üsullarını bildirir. Beynəlxalq hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 16 avqust 1994-cü il tarixli Sərəncamı, «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması icrası, denonsasiyası haqqında» Azərbaycan Respublikasının 13 yanvar 1995-ci il tarixli Qanunu, «Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin bağlanması, icrası və denonsasiyası qaydalarının təsdiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 1996-cı il tarixli Fərmanı mühüm yer tutur. Beynəlxalq hüquqla daxili hüququn münasibəti bir sıra ölkələrin konstitusiyalarında da tənzimlənmişdir. Məsələn, Fransa Konstitusiyasının 55-ci maddəsinə görə, lazımi qaydada təsdiqlənən və ya bəyənilən müqavilə və ya sazişlər digər tərəfin əməl etməsi şərti ilə qanunlardan daha üstün qüvvəyə malik olurlar [7, s. 6].

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, hakimiyyətin üç qolundan biri olan qanunverici hakimiyyət beynəlxalq müqavilələrin daxili qanunvericiliyə toxunan hissəsi də daxil olmaqla imzalanmasında və ləğv edilməsində iştirak etməlidir. Referendum vasitəsilə dövlət həyatının rəngarəng məsələlərinin, qanunların qəbul edilməsi, dəyişdirilməsi və ləğvi də daxil olmaqla həlli nəzərdə tutulduğu üçün, müasir konstitusiyalar müəyyən hallarda referendumun təyin edilməsini qanunverici orqanların müstəsna və ya alternativ səlahiyyətlərinə aid edirlər. Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinə görə, Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

IV. **Nəticə.** Beləliklə,qeyd etmək lazımdır ki, qanunverici orqan hər bir dövlətdə mühüm əhəmiyyət kəsb edir. Məqalədə Milli Məclisin səlahiyyətlərinin konstitusion xüsusiyyətləri və ümumi xarakteristikası ilə əlaqədar elmi ədəbiyyat təhlil olunmuş, Azərbaycan Respublikasının Milli Məclisini parlament – qanunverici hakimiyyət orqanı kimi xarakterizə edən xüsusiyyətlər

araşdırılmış, Milli Məclisin səlahiyyətləri dairəsinə toxunulmuş, Milli Məclisin təşkili və fəaliyyəti ilə bağlı qanunvericilik təhlil olunmuş və dünya dövlətlərinin parlament praktikası ilə müqayisə olunmuşdur. Aparılmış araşdırmalar aşağıdakı nəticələrə gəlməyə və qanunvericiliyin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklifləri irəli sürməyə imkan vermişdir.

Hüquq ədəbiyyatında parlamentarizmə və parlamentə verilmiş anlayışlarda mübahisəli məqamlar vardır. Həmin anlayışları aşağıdakı kimi müəyyənləşdirmək daha məqsədəuyğundur:

Adi qanunlardan fərqli olaraq, Konstitusiya qanunlarına qoyulan veto mütləq xarakter daşıyır, yəni Milli Məclis tərəfindən ona qarşı preventiv mexanizmi yoxdur və onlar prezident tərəfindən imzalanmadığı təqdirdə qüvvəyə minə bilməz. Hesab edirik ki, mütləq veto qanunverici orqanın qanunvericilik prosesi zamanı fəaliyyətini məhdudlaşdırır. Bu baxımdan da Konstitusiya qanunlarının qəbul edilməsi zamanı prezident ona veto qoyduğu halda Milli Məclis tərəfindən onun dəf edilməsi mexanizminin Konstitusiyada nəzərdə tutulması daha məqsədəuyğun olardı. Çünki digər qanunlardan fərqli olaraq, Konstitusiya qanunları dövlət və cəmiyyət həyatının ən əhəmiyyətli münasibətlərini tənzimləyir.

Qanunvericilik prosesinin mərhələlərindən biri də qanunvericilik təşəbbüsü hüququdur. Qanunvericilik təşəbbüsü hüququ deputatın fərdi və ya kollektiv şəkildə reallaşdırıla bilən əsas səlahiyyətlərindən hesab olunur. Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsində hər bir deputatın qanunvericilik təşəbbüsü hüququ müəyyən olunur. Hesab edirik ki, deputatların qanunvericilik təşəbbüsü hüququna malik olması onların təmsilçilik fəaliyyətini daha sərbəst surətdə həyata keçirməsinə imkan verir. Parlamentarilərin kollektiv şəkildə qanun layihəsi təklif vermək hüququ Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmamışdır. Bu isə o demək deyildir ki, Milli Məclisin üzvləri kollektiv şəkildə qanunvericilik təşəbbüsü hüququndan istifadə etmək imkanından tamamilə məhrumdurlar. «Azərbaycan Respublikası Milli Məclisi deputatlarının statusu haqqında» Qanunun 9-cu maddəsi də deputatların kollektiv şəkildə layihə təklif etmələrini nəzərdə tutmasa da, onu qadağan da etməmişdir. Buradan belə bir nəticəyə gəlmək olar ki, deputat qruplarının qanunvericilik təşəbbüsü hüququndan kollektiv şəkildə istifadə etmək imkanı mövcuddur və bu hər bir deputatın müvafiq hüquqdan istifadə etmələri ilə reallaşdırıla bilər. Bu isə başqa dövlətlərin parlament üzvlərindən fərqli olaraq, Azərbaycan Respublikası Milli Məclis üzvlərinin daha geniş qanunvericilik təşəbbüsü hüququna malik olmasını və qanunların qəbul olunması zamanı daha sərbəst olmalarını şərtləndirir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası [Elektron resurs]. URL: http://e-qanun.az/framework/897

2. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4029

3. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiya Hüququnun əsasları (məntiqi - struktur sxemlər). - Bakı: Adiloğlu, 2002. - 230 s.

4. Çirkin V.Y. Xarici ölkələrin konstitusiya hüququ (rus dilindən tərcümə). - Bakı: Digesta, 2000. - 350 s.

5. Əliyev Q.S. Milli Məclisə Seçkilərin hüquqi əsasları. - Bakı: Azərbaycan Demokratiyanan inkişaf fondu, 2000. -146 s.

6. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2006. - 698 s.
7. Əsgərov Z.A. Naxçıvan MR-ın konstitusiya səlahiyyətləri // BDU-nun Xəbərlər. 1992. - №l.- S.3-8.
8. Hüquq terminləri lüğəti. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1961. - 311 s.
9. Məlikova M. F. Dövlət və hüquq nəzəriyyəsi. - Bakı: Maarif, 1988. - 382 s.
10. Беджгот В. Государственный строй Англии. - М.: М. и С. Сабашниковы, 1905. - 359 с.
11. Керимов Дж.А. Культура и техника правотворчество. - М.: Юридическая литература, 1981. - 197 с.
12. Уэйд Э.К.С., Филиппе Дж.Г. Конституционное право. - М.: Госюриздат, 1950. - 296 с.

**Mammadli I.E.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.171-179**
**UDC: 342**

## Constitutional features and general characteristics of the powers of the Milli Majlis of the Republic of Azerbaijan

**Abstract:** The author analyzed the constitutional features of the powers of the Milli Majlis of the Republic of Azerbaijan, their general characteristics, their powers and the issues they resolve, constitutional law, and the powers of deputies from the perspective of interaction, in this process, he studied the foreign and national legislative framework, international experience, the constitutional features of the powers of the Milli Majlis and examined the mechanism of its general characteristics, put forward a number of proposals for the purpose of improving the legislation and practice.
**Keywords:** Milli Majlis; right of legislative initiative; powers; legislative body; referendum.

### References

1. Constitution of the Republic of Azerbaijan. Available at: http://e-qanun.az/framework/897 (in Azerbaijani).
2. Law of the Republic of Azerbaijan on approval of the Internal Regulations of the Milli Majlis of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/4029 (in Azerbaijani).
3. Jafarov I.M. Fundamentals of the Constitutional Law of the Republic of Azerbaijan (logical-structural schemes). Baku, Adiloglu Publ., 2002, 230 p. (in Azerbaijani).
4. Chirkin V.Y. Constitutional law of the foreign countries (transl. from Russian). Baku, Digesta Publ., 2000, 350 p. (in Azerbaijani).
5. Aliyev G.S. Legal basis of the Elections to Milli Majlis. Baku, Azerbajian Demokratiyanin inkishafi fondu Publ., 2000, 146 p. (in Azerbaijani).

[♦] **Mammadli İlgar Elbrus oglu –** Master's student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. E-mail: memmedliilqar52@gmail.com

6. Asgarov Z.A. Constitutional law. Textbook. Baku, Baku University Publ., 2006, 698 p. (in Azerbaijani).

7. Asgarov Z.A. Constitutional powers of Nakhchivan AR // BDU Xeberleri. 1992, No. 1, pp. 3-8 (in Azerbaijani).

8. Dictionary of legalterms. Baku Academy of Sciences of Azerbaijan SSR Publ., 1961, 311 p. (in Azerbaijani).

9. Melikova M.F. State and law theory. Baku, Maarif Publ., 1988, 382 p. (in Azerbaijani).

10. Bejgot V. The political system of England. Moscow, M.&S. Sabashnikov's Publ., 1905, 359 p. (in Russian).

11. Kerimov J.A. Culture and technics of lawmaking. Moscow, Yuridicheskaya literatura Publ., 1981, 197 p. (in Russian).

12. Wade E.K.S., Philippe J.G. Constitutional law. Moscow, Gosyurizdat Publ., 1950, 296 p. (in Russian).

**Мамедли И.Э.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.171-179**
**UDC: 342**

## Конституционные особенности и общая характеристика полномочий Милли Меджлиса Азербайджанской Республики

**Аннотация:** Через призму взаимодействия с полномочиями депутатов Милли Меджлиса Азербайджанской Республики анализируются конституционные особенности полномочий самого Милли Меджлиса, его общая характеристика, полномочия и решаемые им вопросы, конституционное право, исследуется зарубежная и национальная законодательная база, международная практика, исследуются конституционные особенности и механизм общей характеристики полномочий Милли Меджлиса, выдвигается ряд предложений по совершенствованию законодательства и практики.

**Ключевые слова:** Милли Меджлис; право законодательной инициативы; полномочия; законодательный орган; референдум.

### Библиография

1. Конституция Азербайджанской Республики [Электронный ресурс]. URL: http://e-qanun.az/framework/897 (на азерб. яз.).

2. Закон Азербайджанской Республики об утверждении Внутреннего регламента Милли Меджлиса Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/4029 (на азерб. яз.).

3. Джафаров И.М. Основы конституционного права Азербайджанской Республики. – Баку: Адильоглы, 2002. – 230 с. (на азерб. яз.).

♦ **Мамедли Ильгар Эльбрус оглы -** магистрант Академии государственного управления при Президенте Азербайджанской Республики (Азербайджан). E-mail: memmedliilqar52@gmail.com

4. Чиркин В.Я. Конституционное право зарубежных стран (перев. с рус. яз.). – Баку: Дигеста, 2000. – 350 с. (на азерб. яз.).

5. Алиев Г.С. Правовые основы выборов в Милли Меджлис. – Баку: Фонд демократического развития, 2000. – 146 с. (на азерб. яз.).

6. Аскеров З.А. Конституционное право. Учебник. – Баку: изд-во Бакинского ун-та, 2006. – 698 с. (на азерб. яз.).

7. Аскеров З.А. Конституционные полномочия Нахичеванской АР // Новости БГУ. 1992. - № 1. – С. 3-8 (на азерб. яз.).

8. Словарь юридических терминов. – Баку: изд-во Академии наук Аз. ССР, 1961. – 311 с. (на азерб. яз.).

9. Меликова М.Ф. Теория государства и права. – Баку: Маариф, 1988. – 382 с. (на азерб. яз.)

10. Беджгот В. Государственный строй Англии. М.: М. и С. Сабашниковы , 1905. - 359 с.

11. Керимов Дж.А. Культура и техника правотворчество. - М.: Юридическая литература, 1981. - 197 с.

12. Уэйд Э.К.С., Филиппе Дж.Г. Конституционное право. - М.: Госюриздат, 1950. - 296 с.